Eldar Qəmərli,
Əli Bayramlı Şəhər Mədəniyyət və Turizm Şöbəsinin inspektor əvəzi

## SƏN VƏ MƏN

Yaman gec rast gəldik bir-birimizə,
Mən evli kişiyəm, sən subay qızsan.
Mən ayaq altında qara torpağam,
Sən sonsuz səmada parlaq ulduzsan.

Mən qoca bir dağam dumanlı, çisli,
Sən bir şəlaləsən bahar nəfəsli,
Mən ahlı, naləli, sən şaqrar səsli,
Mənimlə, əlbəttə, peyman qılmazsan.

Qabaqda gözləyir səni xoş ömür,
Mənim sınıq könlüm heç vaxt düzəlmir,
Mən çoxdan çürümüş paslı bir dəmir,
Sən hələ bərq vuran parlaq almazsan.

Mən poza bilmirəm adəti, dəbi,
Sən gərək olasan özgə nəsibi,
Mən bir az yorğunam, bir az əsəbi,
Sən başdan ayağa işvəsən, nazsan.

Qəm üstə köklənib mənim kamanım,
Sənə qovuşmağa yoxdur gümanım,
Məni eşq oduna atan ceyranım,
Bəs, niyə bir dəfə yada salmazsan?!

Mən kiməm? Dünyanın yorğun yolçusu.
Sən kimsən? Yolçunun şirin arzusu.
Mən yanar ürəyəm, sən bir içim su,
Sən bir içim suyu mənə qıymazsan.

Sənin gözəlliyin dillər əzbəri,
Mən şəhər içində məşhur sərsəri,
Mən öpmək istəsəm xumar gözləri,
Sən bu istəyimə razı olmazsan.

Sənin saçın qara, mənimki çaldır,
Mənim rəngim solğun, səninki aldır,
Sənin cavanlığın məni qocaldır,
Bir dəfə dərdimi xəbər almazsan.

Mənim üçün dünya boranlı bir qış,
Sənin üçün dünya isti bir yağış,
Mənim saçlarıma bəyaz qar yağmış,
Sən qar soyuğunu hələ duymazsan.

Mənim ürəyimdə məhəbbət odu,
Sənin aləmində bunlar yuxudu,
Məni qəmgin edən həzin duyğudu,
Sən həzin havalar hələ çalmazsan.

Biz ki, dayanmadıq heç vaxt üz-üzə,
Biz ki, oturmadıq heç vaxt diz-dizə,
Bəs, niyə rast gəldik bir-birimizə?
Dünyanın işindən baş çıxarmazsan.

Gün gələr mənimtək yaşa dolarsan,
Ümidsiz bir eşqə düçar olarsan.
Səhəri qızarmış gözlərlə açıb,
Üzgün fikirlərlə tənha qalarsan.
Onda belə nazla xumarlanmazsan.

Yazıq Eldar kimi yanarsan onda,
Nələr çəkdiyimi qanarsan onda,
Məni nə istəsən sanarsan onda,
O zaman sən məni dəli saymazsan,
Onda istəsən də məni tapmazsan,
Köhnə məzarlara çünki baxmazsan.

## OLMUSAN

**Mən sənə könlümü açandan bəri,**
**Gözə görünmürsən, qaçaq olmusan.**
**Səni tapmaq üçün gəzdim hər yeri,**
**Tapmadım, qaçmaqda qoçaq olmusan.**

**Bilmirəm bu dərdə necə dözürəm,**
**Deyəsən, özümü nahaq üzürəm,**
**Mən səni torpağın üstə gəzirəm,**
**Sən isə göylərdə uçaq olmusan.**

**Sənin vüsalına çata bilmirəm,**
**Gecələr sübhədək yata bilmirəm,**
**Səni ürəyimdən ata bilmirəm,**
**Köksümə sancılan bıçaq olmüsan.**

**Eldar hər eybinə göz yuman olub,**
**Səntək bivəfadan vəd uman olub,**
**Dillərin köhnə bir dəyirman olub,**
**Özün baş ağrıdan çaq-çaq olmusan.**

## SİRR

Bir sirr ürəyimi didib-dağıdır,
Desəm, deməzsən ki, dost-tanışına?
Sənin dost-tanışın mənə yağıdır,
Gedib çatdırarlar tez qardaşına.

Sirr ürəkdə qalsa, dərdə çevrilər,
Dərd ürəkdə qalsa, mənə çövr elər,
Çarxım geri dönər, taxtım devrilər,
Başımı qoyarlar əlhəd daşına.

Sanma qocalmışam, ağlım azalıb,
Məni eşq atəşi bu günə salıb,
Çoxdan ürəyimdə bir nisgil qalıb,
Çevir, çevir məni can sirdaşına.

Bu sirri ürəkdə nəyə saxlayaq,
Gəl onu özümüz ellərə yayaq,
Sən mənə həmdəm ol, mən sənə dayaq,
Çevrilək ömür-gün, yol yoldaşına.

Bu fani dünyadan birgə kam alaq,
Birgə qanad çalaq, birgə ucalaq,
Birgə ömür sürək, birgə qocalaq,
Bir çıxaq həyatın sərt yoxuşuna.

Eldarın sirri bu, söhbəti budur,
Arzusu, məqsədi, niyyəti budur,
Sənsiz halı budur, haləti budur,
Xitam ver könlümün iğtişaşına.

## QÜDRƏT VER

*Allah, mənim qələmimə qüdrət ver,*
*Bu gözəli layiqincə vəsf edim.*
*Qoy eşitsin ulu göylər, ana Yer,*
*Mən heç yerdə belə gözəl görmədim.*

*Nazlandıqca sərxoş kimi hallanır,*
*Yanaqları Günəş kimi allanır,*
*Yeriyəndə, vallah, elə sallanır*
*İmkan olsa, ayağından öpərdim.*

*Şəhla gözlər büllur kimi dupduru,*
*Bədənində yox nöqsanı, qüsuru,*
*İndiyədək əymədiyim qüruru*
*Bu gözəlin qarşısında əyərdim.*

*Bu dünyada mən hər şeyi ataram,*
*Qul olaram, qapısında yataram,*
*Bütün mətləb-muradıma çataram,-*
*Əgər bu qız mənim olsa, nə dərdim.*

*Yalan sandım, yalan, bütün qızları,*
*Məni dərdə salan bütün qızları,*
*Çiçək kimi qalan bütün qızları*
*Bu gözəlin yollarına səpərdim.*

*Qorxuram ki, qismət ola özgəyə,*
*Qorxuram ki, bu gözələ göz dəyə,*
*Meyli olsa Eldar kimi bəndəyə,*
*Çadra olub bədənini örtərdim.*

## ELƏ BİLİR Kİ...

***Yoldan keçən gözəl elə bilir ki,***
***Ya ağacam, ya dəmirəm, ya daşam.***
***Sözün düzü, qınamıram onu mən,***
***Nə bilsin ki, burda niyə durmuşam.***

***Söz deməyə tapammıram cəsarət,***
***Dil lal olub, bağlanıbdır bəsarət,***
***Özüm əsir, vəziyyətim əsarət,***
***Boynumu da yetim kimi burmuşam.***

***Bu qız məni yaman dərdə salıbdır,***
***Bu qız mənim iradəmi alıbdır,***
***Ümid bircə gözlərimə qalıbdır,***
***Gözlərimlə ona tələ qurmuşam.***

***Çarə yoxdur, əl atmışam kələyə,***
***Fələk qoymur onu düşsün tələyə,***
***Mənim daha sözüm yoxdur fələyə,***
***Fələk ilə aramızı vurmuşam.***

***Eldar, hər gün bu yoldan bir can keçir,***
***Dərdə dərman, gözəllərə xan keçir,***
***Düzdür keçir, amma məndən yan keçir,***
***Gözlərimi nahaq yerə yormuşam.***